**Hörmətli konfrans iştirakçıları!**

İlk növbədə hər birinizi salamlayır və konfransın işinə uğurlar arzu edirəm!

30 il ərzində Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının icrası istiqamətində beynəlxalq konvensiyaların, minilliyin inkişafı məsələlərini əhatə edən aktların qəbulu və Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi gender bərabərliyi sahəsində qlobal səviyyədə əldə edilən ən böyük nəticələrimizdir.

2024-cü ildə Azərbaycanda baş tutan COP29-un gündəliyində gender məsələlərinə geniş yer verilmiş, ilk dəfə olaraq bu çərçivədə “Gender Günü” keçirilmişdir. COP29-un yekdil qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edilmişdir.

Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi üzrə ölkəmizdə milli institusional mexanizmlər mərkəzi icra hakimiyyəti orqanı Dövlət Komitəsi, qanunverici orqan da analoji olaraq parlament komitəsidir. Qeyd edim ki, Dövlət Komitəsinin “Gender bərabərliyinin təminatları haqqında” AR Qanununun icra vəziyyətinə dair illik məlumatı Milli Məclisin plenar iclasında dinlənilir və ətrafında fəal müzakirələr aparılır.

Eyni zamanda, regionlarda Dəstək və Resurs Mərkəzləri, bələdiyyələrdə Gender Komissiyaları, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, digər dövlət müəssisə və təşkilatlarında gender məsələləri üzrə məsul şəxslər fəaliyyət göstərir.

Ötən dövr ərzində ölkədə instusional və vətəndaş cəmiyyəti təsisatlarının əlaqəli işi nəticəsində qadınların hüquqlarının qorunması və səlahiyyətləndirilməsi istiqamətində nəzərəşarpan müsbət nəticələr əldə edilmişdir. Lakin hələ də bacarıqların və yeni resursların artırılmasına zərurət vardır.

Gender əsaslı zorakılıq hər bir cəmiyyətdə mövcuddur və nəticəsi faktiki olaraq bütün insanlara təsir göstərir. Azərbaycanda məişət zorakılığı, uşaq evlilikləri, qohum nikahlarının qarşısının alınması məqsədilə qanunvericiliyə yeni tənzimləyici normalar daxil edilmişdir.

Yerli icra hakimiyyəti orqanları yanında Dövlət Komitəsi tərəfindən koordinasiya olunan müvafiq monitorinq və əlaqələndirmə qrupları yaradılıb. "Məişət zorakılığı ilə mübarizəyə dair Milli Fəaliyyət Planı"nın icrası uğurla başa çatmışdır, hazırda yeni Fəaliyyət Planının layihəsi üzərində işlənilir. Eyni zamanda “Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı”nın layihəsi ölkədəki mövcud reallıqlar nəzərə alınaraq yenilənmişdir.

Qadınların və gənc qızların təhsil imkanlarının genişləndirilməsi istiqamətində də bir sıra layihə və proqramlar reallaşdırırıq.

Qadınların siyasi iştirakının və qərar qəbuletmə orqanlarında təmsilçiliyinin artırılması istiqamətində tendensiyalar hər il müsbətə doğru dəyişir. Son seçkilərin nəticələrinə əsasən qadın millət vəkillərinin sayı artaraq 20,8 bələdiyyə üzvləri arasında isə **39** faiz təşkil etmişdir.

Əlbəttə bu sahədə siyasi hesabatlılıq qərar qəbuledici vəzifələrdə olan qadınların sayının artırılması ilə başlayır, lakin bununla bitə bilməz. Bütün seçilmiş məmurlar dövlət siyasətində gender bərabərliyinin təşviq edilməsini və onların həyata keçirilməsinin təmin edilməsini daha effektiv edəcək genderə həssas idarəetmə islahatlarına fəal qoşulmalıdır.

**Lakin xüsusilə qeyd edilməlidir ki, bütün dünyada insanlara qarşı ən böyük zorakılıq ədalətsiz müharibələr, işğal və etnik təmizləmə aktlarıdır. Biz bu bəlalardan ən çox əziyyət çəkən ölkələrdən biri olmuşuq. Bü gün ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunsa da müharibənin uzun illər ərzində törətmiş olduğu fəsadlar, dağıntılar hələ də göz önündədir.**

**Azərbaycan zorən cəlb olunduğu I Qarabağ müharibəsində 4 min nəfərdən çox vətəndaşı əsir və itkin düşmüş, girov götürülmüşdür. Onlardan 75 nəfəri uşaq, 116 nəfəri qadın, 315 nəfəri isə qocalar olmuşdur. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın nəzarətinə qaytarılan ərazilərdə kütləvi məzarlıqlar aşkar edilməkdədir. Hələ 1990-cı illərdə Ermənistan qoşunları tərəfindən əl-ayağı bağlı şəkildə edam edilmiş yüzlərlə insan qalıqları minalardan təmizlənən və**

**işğaldan azad edilən ərazilərdə kütləvi məzarlıqlardan tapılaraq çıxarılır və şəxsiyyətləri müəyyən edilir. Bu acı statistikadır.**

**Eyni zamanda minalardan zərərçəkənlərin son statistik məlumatlarına əsasən 2020-ci ildən bu yana 300-dən çox insan ya həlak olub, ya da yaralanıb. Ümumilikdə isə 1991-ci ildən bu günə kimi 3400 nəfərdən çox minadan zərərçəkən olmuşdur. Onlardan 400 nəfərə yaxını uşaq və gənclər, 38 nəfəri qadınlardır.**

**Bu mötəbər kürsüdən xüsusilə vurğulamaq istərdim ki, belə halların təkrar olunmaması üçün bütün dünya ölkələri sülh üçün səylərini artırmalı və cinayətkarları cəzalandırmaq üçün çalışmalıdırlar.**

Hörmətli iştirakçılar!

Çıxışımın sonunda bildirmək istərdim ki, Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının öhdəliklərini də özündə ehtiva edən gələcək fəaliyyətimiz inanıram ki, qadınların bütün sahələrdə bərabər iştirakına töhfə verəcəkdir.

Diqqətiniz üçün təşəkkür edirəm!